Xalq qəzeti 2021.- 8 yanvar.- S.10.

# Nizami ili Azərbaycanı dünyaya qədim tarixə malik sivil ölkə kimi tanıdacaq



***Xəbər verildiyi kimi, 2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və onlara yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq, Prezident İlham Əliyevin sərəncamı ilə yeni 2021-ci il Azərbaycanda "Nizami Gəncəvi ili" elan edilmişdir.***

***Bütün ölkə əhalisi kimi, yaradıcı ziyalılarımız da bu ilin ən seçilən hadisəsi elan olunan yubileyi layiqincə qeyd etmək üçün dövlət başçısının ayrıca sərəncam imzalamasını və il boyu Nizami təntənələrinin keçirilməsinə start verilməsini böyük maraqla qarşılayaraq yüksək dəyərləndirirlər. Azərbaycan Yazıçılar Birliyinin katibi, "525-ci qəzet"in baş redaktoru, Əməkdar jurnalist Rəşad Məcid öz təəssüratını belə ifadə etdi:***



--Xalqımız üçün 2020-ci il 30 ildən bəri həlli müşkülə çevrilmiş Qarabağ münaqişəsi, nəhayət, Azərbaycanın hərbi qələbəsi ilə başa çatdı. Bütün dünya xalqımızın tarixən yurdsevər və döyüşkən olduğunu bir daha gördü. Azərbaycan həm də zaman-zaman bəşər mədəniyyətinə dahi sənətkarlar, alimlər, mütəfəkkirlər vermiş bir ölkə kimi tanınıb. 2018-ci ili "Nəsimi ili" olaraq əlamətdar etməyimiz, 2021-ci ilin isə "Nizami ili" elan edilməsi bu baxımdan Azərbaycanı dünyaya qədim sivilizasiya mərkəzlərindən biri kimi tanıtmağa xidmət edir. Azərbaycan ötən il dünyaya Zəfər çalmış qüdrətli dövlət olaraq tanıdıldı, bunun ardınca isə bu il bəşər mədəniyyətinə Nizami kimi korifey sənətkarlar vermiş istedadlı insanlar məmləkəti kimi təqdim olunur.

Bu münasibətlə Prezident İlham Əliyevin imzaladığı sərəncam ötən ilin Qələbə duyğu-düşüncələrinin davamı olaraq, xalqımıza Nizami dahiliyindən doğan öyüncülü bir il yaşadacaq. Bu baxımdan dövlət başçısının sərəncamını milli-mənəvi dəyərlərimizin ali səviyyədə diqqətdə saxlanılması ilə yanaşı, həm də qalib xalqa verilən Prezident hədiyyəsi də hesab etmək olar. Yəni Nizami yurdunu işğaldan azad etməklə yağılardan qorumuş bir xalqın öz qələbə təntənələrini dünya miqyasında korifey sayılan bir şairi və mütəfəkkiri ilə öyünməklə davam etdirməyə tam haqqı çatır.

Rəşad Məcid daha sonra qeyd etdi ki, Prezident sərəncamında orta əsrlər Azərbaycan intibahının zirvəsi sayılan Nizami Gəncəvi böyük sevgi və iftixarla "Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyət" kimi təqdim olunur:

--Sərəncamda bildirilir ki, nəhəng söz ustasının xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır. Xatırlatdığım kimi, 2 il bundan qabaq ölkəmizdə "Nəsimi ili" elan olunmuşdu. Cənab Prezidentin "Nəsimi ili" elan etməyinin bir səbəbi də işğalçı Ermənistanın xalqımızı aşağılayan böhtan nvə yalanlarının dünya səviyyəsində cavablandırılması idi. Bu ilin də "Nizami ili" olması həmin məram və məntiqin davamı olaraq, Prezidentin böyük məna yükü olan müdrik addımıdır.

Nizami dühasının nadirliyini bir daha nəzərə çatdıran Prezident sərəncamında xatırladılır ki, Azərbaycan poeziyasının nəhəngi zaman-zaman dünya şərqşünaslığının da diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində isə daha önəmli işlər görülmüşdür. Şairin əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir.

Qeyd edək ki, ümummilli lider Heydər Əliyev də Azərbaycana rəhbərliyi dövründə Nizami irsinə xüsusi diqqət yetirmişdi. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar dahi şairin həyat və yaradıcılığının tədqiqi və təbliği üçün geniş imkanlar yaratmışdı. O zaman da yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdi. Müstəqil dövründə də Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edildi.

Sərəncamdan aydın olur kimi, Dünya bu il Nizami Gəncəvinin yaradıcılığına bir daha nəzər salacaq. "Nəsimi ili"ndə olduğu kimi, bu il də dünya Nizami Gəncəvinin yaradıcılığına geniş miqyasda və dərindən qayıdacaq. Dünya bir daha Nizami Gəncəvinin Azərbaycan şairi olmasına şahidlik edəcək. "Nəsimi ili"ndə olduğu kimi, bu ilin də nəzərdə tutulduğu səviyyədə keçirilməsi üçün yaradıcı və elmi təşkilatlarla yanaşı, müvafiq dövlət və vətəndaş qurumları da öz layiqli töhfələrini verəcəkdir. Yazıçılar Birliyi də Mədəniyyət Nazirliyi və digər icra qurumları ilə birgə silsilə tədbirlər həyata keçirəcək.

Nizami ili ilə bağlı yeni sərəncamda o da göstərilir ki, ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradan böyük şairimiz Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.

Nəhayət, Nizami Gəncəvinin 880 illik yubileyi ilə bağlı ölkəmizdə 2021-ci ilin Nizami ili elan edilməsi ilə bağlı sərəncamın diqtə etdiyi məna və mahiyyət, eləcə də nəzərdə tutulan silsilə tədbirlər Azərbaycanı beynəlxalq aləmə dünya miqyasında dahilər yetirən bir coğrafi məkan kimi tanıtmağa xidmət edəcək.

***Hazırladı:***
***Tahir AYDINOĞLU, "Xalq qəzeti"***